AZƏRBAYCAN DİLİ VƏ ƏDƏBİYYAT TƏDRİSİ
2021, № 3 (269), 71-76

METODİKA

# Füzulinin "Leyli və Məcnun" poemasında Zeyd obrazı və onun tədrisinə dair

***Nərminə Fazilova***
Milli İrsi Mədəni Tarixi Araşdırmalar Fondu. Azərbaycan.
E-mail: narmina.fazilova@gmail.com
https://orcid.org/0000-0003-0054-5441

**XÜLASƏ**
Azərbaycan ədəbiyyatında önəmli yerlərdən birini tutan və orta ümumtəhsil məktəblərində tədris olunan bədii örnəklərdən biri də Füzulinin "Leyli və Məcnun" poemasıdır. Obrazlar etibarilə zəngin olan poemanın seçilən, diqqət cəlb edən surətlərindən biri Məcnunun rəfiqi Zeyddir. Poemada bu obraza geniş yer verilməsə də, onun süjet xəttinin inkişafında əhəmiyyətli rol oynadığı inkarolunmazdır. Məcnunun rəfiqi olan Zeyd, onun dərdini hər kəsdən yaxşı başa düşür. Çünki özü də eşq dərdinə mübtəladır. Məqalədə Zeyd obrazının tədris prosesində təhlilə cəlb edilməsi yollarından bəhs olunmuşdur. Dərs prosesində bu obrazın təhlili zamanı onun daxili aləminin açıqlandığı məqamların əhəmiyyət kəsb etdiyi məqalə boyunca diqqət mərkəzində saxlanılmışdır. Burada həmçinin Məcnun ilə Zeyd arasındakı dostluq münasibətinin incəliklərinə də toxunulmuşdur. Təhlil poemadan gətirilən nümunələr əsasında aparılmış və hadisələrin ardıcıllığının qorunmasına diqqət yetirilmişdir.

**AÇAR SÖZLƏR**
klassik ədəbiyyat, poema, obraz, təhlil, təlim prosesi

**MƏQALƏ TARİXÇƏSİ**
göndərilib: 23.07.2021
qəbul edilib: 04.08.2021

**MƏQALƏNİ ÇAPA MƏSLƏHƏT BİLƏN**
Pedaqogika üzrə fəlsəfə doktoru, dosent Bilal Həsənli.

TEACHING OF AZERBAIJANI LANGUAGE AND LITERATURE
2021, NO. 3, VOL. 269, 71-76

METHODS

# The character of Zayd in Fuzuli's "Layla and Majnun" and about its teaching

***Narmina Fazilova***
National Heritage Cultural Historical Research Foundation. Azerbaijan.
E-mail: narmina.fazilova@gmail.com
https://orcid.org/0000-0003-0054-5441

**ABSTRACT**
Fuzuli's poem "Layla and Majnun" is one of the important examples in Azerbaijani literature and taught in high school. One of the outstanding characters of the poem, which is rich in characters, is Majnun's friend Zayd. Although this character is not given much space in the poem, it is undeniable that it played an important role in the development of the plot line. Zayd, Majnun's friend, understands his pain better than anyone. Because he himself was in love. The article discusses the ways to analyze the character of Zayd in the teaching process. During the analysis of the character of Zayd in the course of the lesson, the points of his inner world were kept in the center of attention throughout the article. The subtleties of the friendly relations between Majnun and Zayd were also touched upon here. The analysis was based on examples from the poem. At the same time, attention was paid to maintaining the sequence of events.

**KEYWORDS**
classical literature, poem, character, analysis, teaching process

**ARTICLE HISTORY**
Received: 23.07.2021
Accepted: 04.08.2021

## Giriş / Introduction

Füzulinin “Leyli və Məcnun” poeması zəngin obrazlar aləminə malikdir. Dərin məna yükünü özündə ehtiva edən bu dəyərli sənət nümunəsinin layiqli şəkildə tədrisi sənətkarın obrazlara, eyni zamanda bu obrazların da bir-birinə münasibətinin düzgün müəyyənləşdirilməsi vasitəsilə mümkündür. Poemada əksini tapan Məcnun, Leyli, onların valideynləri, Nofəl, İbn Səlam və Zeyd obrazları ayrı-ayrılıqda müəyyən ideyaların ifadəçisi, fərqli mövqelərdə dayanan şəxslər, “zərrələr”dir. Əsərin başlıca ideyasının ortaya çıxarılması üçün onları bir-birindən təcrid etmək yolverilməzdir. Zənnimizcə, əsərdəki obrazların təhlilini Məcnun surətinin təhlili ilə qarşılıqlı surətdə aparmaq daha məqsədəuyğundur. Çünki sənətkarın qarşıya qoyduğu məqsəd, irəli sürmək istədiyi ideya Məcnunun simasında, mənəvi aləmində gizlənir.

Poemanın sayılıb-seçilən obrazlarından biri də “qəmxar”, “vəfadar” sözləri ilə vəsf olunan Zeyd surətidir. Sənətkarın sevə-sevə yaratdığı bu obraz əsərin baş qəhrəmanı olan Məcnunun sirdaşı, vəfası ilə hər kəsdən fərqlənən can yoldaşıdır. Onun eşq cəfasından və “məlamət bəlası”ndan xəbərdar olması əsərdə diqqət cəlb edən və bu cəhətdən tədris prosesində də əhəmiyyətli məqamlardan biri hesab edilir. Zeyd obrazı ilə poemanın “Bu, Zeyd vəfadarın Məcnuna xəbər gətirdigidir və İbn Səlam ilə Leylinin peyvəndi müjdəsini yetirdigidir” sərlövhəli parçasında qarşılaşan şagirdlər ilk növbədə onun sahib olduğu nəcib keyfiyyətlərlə tanış olur, Məcnuna qarşı əhdinə sadiq bir yoldaş, eyni zamanda Zeynəb adlı gözələ aşiq bir gənc olduğunu öyrənirlər. Füzuli Zeydi aşağıdakı kimi təsvir edir:

Məşhur idi fəzlivü kəmalı,
Mə'ruf idi hüsnüvü cəmalı.
Olmuşdu əsir bir nigarə,
Büt ziybli Zeynəb adlı yarə [2, s.142].

Zeyd ilə Məcnun arasındakı yoldaşlıq bağı elə qüvvətlidir ki, onlar bir-birinin halını sükut vəziyyətində ikən belə duymağa qabildirlər. Unutmaq olmaz ki, ədəbi qəhrəmanın düşüncələri, hiss və duyğuları dərsdə təhlil üçün zəngin material verir [3, s.198]. Burada da Leylinin İbn Səlama ərə verildiyi xəbərini gətirən Zeydi taqətsiz bir halda görən Məcnun ondan dərhal kədərinin səbəbini soruşur. Çünki Zeydin gözü dolmuş, ağ bənizi ağlamaqdan al rəngə boyanmışdır:

Rəngi-rüxi-zərdi əşkdən al.
Dolmuş gözü, peykəri pozulmuş,
Nitqində təkəllümü tutulmuş [2, s.142].

Zeydə görə, Leyli "əğyar ilə yar" olmuş, Məcnunun çəkdiyi ahlar, qopardığı fəğanlar "zaye olmuşdur". Bu sözləri eşidib vaqeədən xəbərdar olan Məcnunun ürək yanğısı ilə qopardığı fəryad əhatəsindəki vəhşiləri və quşları ağladır. Lakin özündə qüvvət taparaq oradaca vəfasız adlandırdığı sevgilisinə məktub yazır, Zeydin qasidliyi ilə onu Leyliyə göndərir. "Zeydi-qəmxar" "Nigar olan diyara yetincə" hiylə yolu ilə Leylini görməyə bir çarə tapır. Belə ki, o, İbn Səlama "həmdəm olub" Leylinin halından xəbər aldıqda əlindəki məktubu onun müşkülünə dəva kimi qələmə verir və məqsədinə nail olub Məcnunun məktubunu ona yetirir, həmçinin Leyli də sevgilisinə yazdığı cavab məktubunu Zeydin qasidliyi ilə yola salır.[3]

Zeydin qasidlik missiyasının davamını Leyli diyarına üz tutaraq ondan Məcnuna xəbər gətirməsində də görmək mümkündür. Zeyd üzündə nur, qəm-qüssədən uzaq bir hal içində ona yaxınlaşanda Məcnun təəccübünü gizlədə bilmir. Burada müəllim, Zeyd və Məcnunun digər bir nəcib keyfiyyətinin üzə çıxarılması üçün, ilk növbədə şagirdlərin diqqətini aşağıdakı parçaya yönəldə bilər:

Sordu ki: "Nədəndir inbisatın?
Adətcə görünməyən nişatın?
Məqsudinə dəstrəsmi oldun?
Dildarinə həmnəfəsmi oldun? [2, s.174].

Belə ki, Zeydin şadlığını görməyə alışmayan Məcnun bu dəfə onu sevinc içində gördüyünə görə sevgilisinə qovuşduğunu, "məqsuda yetdiyini" zənn edir. Vəfalı dost olan Zeyd isə, əslində, Leylidən gələn xəbərlə Məcnunun sevinəcəyini bildiyi üçün şad olmaqdadır. Buradan belə nəticə çıxır ki, hər iki dost həqiqi yoldaş, vəfalı insanlardır. Çünki onlar bir-birinin sevincinə də, qəminə də şərik çıxmağı bacarırlar.

Zeyd obrazını növbəti dəfə poemanın "Bu, İbni Səlamın keyfiyyəti-vəfatıdır və Leylinin ol bəladan nicatıdır" başlıqlı bölməsində – İbn Səlamın vəfat etməsi, Leylinin ata evinə qayıtması xəbərini gətirərkən görürük. Zeyd dostunun bu xəbərdən şad olacağını zənn etsə də, yanılır, çünki Məcnun, əksinə, bu hala kədərlənir, fəryad qoparıb göz yaşı tökür. Məcnun öz cavabı ilə halına təəccüb edən Zeydə İbn Səlamın onun düşməni deyil, dostu olduğunu söyləyir. Bu məqama müəllimin şərhi belə ola

[3] https://dergipark.org.tr/en/download/article-file/76699

bilər: Füzuli burada Məcnunun dili ilə "canana can nisar etməklə" kamilliyə yetməyin mümkünlüyünü qeyd edir. İbn Səlam məcazi eşqin simvolu olmasına baxmayaraq, zaman etibarilə Məcnundan öncə bu dünyadan köçərək "öz mərtəbəsində kamil olmuşdur". Məcnun isə hələ "naqisdir", ona görə də onun göz yaşı tökməsi yersiz deyildir. Burada Zeydin tam mənada Məcnunu dərk etməyə qabil olmadığı diqqəti cəlb edir.

Sevgilisinin ölüm xəbərini Məcnuna yetirmək yenə də Zeydə nəsib olur. Məcnun xəbəri eşidib fəryad qoparır, huşunu itirir. Özünə gəldikdə üzünü Zeydə tutur, onu qınayaraq belə söyləyir:

Netdim sənə qəsdi-canım etdin?!
Qəsdi-dili-natəvanım etdin!
Qıydın məni-zari natəvana,
Urdun sitəm atəşini cana [2, s.216].

"Barı etdiyin bu günaha qarşı bir savab iş gör", – deyərək dostundan onu yarının məzarının başına aparmasını xahiş edir. Beləcə, "yola düşür, Zeydə həmrah olur". Leylinin məzarının üstündə haqqa vasil olan Məcnunun halına Zeyd elə odlu bir fəryad qoparır ki, ətrafına insanlar cəm olur. "Cananəyə can nisar qılan" Məcnunu görüb aqibətinə göz yaşı axıdır, onu Leylinin yanında dəfn edirlər. Dəfndən sonra belə məzarın başından bircə an ayrılmayan vəfalı Zeyd əlindən gələni əsirgəmir, ətrafı səliqə-səhmana salır, "məzar qəndilini yandırır".

Günlərin bir günü məzara söykənib yuxuda üz-gözündən nur saçılan, qəm-qüssədən büsbütün uzaq, əğyarın olmadığı yerdə qərar tutan iki nəfər görür. Kim olduqlarını soruşduğu zaman onların Leyli ilə Məcnun olduqlarını öyrənir. Deməli, bu iki aşiq "eşq vadisinə pak daxil olduqları", saflıqlarını hifz edərək dünyadan köçdükləri üçün indi "mənzilləri baği-rizvan", yəni cənnətdir. Burada hər cür qəm-qüssədən kənardırlar, çünki bu fani, vəfasız məkan olan yer üzündə bəlalara qarşı səbir, dözüm göstəriblər. "Yəni ilahi eşq mücdüdləri gerçək həyatda, cismani mənada qovuşa bilməzlər. Onların vüsalı yalnız əbədiyyət aləmində, ilahi dərgahda mümkündür" [1, s.494].

Zeyd obrazı təhlilə cəlb olunan zaman müəllim onun vəfadarlıqda üstünlüyünün şagirdlər tərəfindən düzgün, layiqli şəkildə dəyərləndirilməsinə önəm verməlidir. Bu obraz "Leyli və Məcnun" poemasında saflıq, vəfalılıq, həqiqi yoldaşlığın mücəssəməsi kimi əhəmiyyətli yer tutur.

## Nəticə / Conclusion

Nəticə etibarilə deyə bilərik ki, Füzulinin "Leyli və Məcnun" poemasının obrazlarından olan Zeydin nəcib insani keyfiyyətləri ilə başqalarından seçilməsi şagirdlərin mənəviyyatına təsir etməyə, onlara örnək olmağa qadirdir. Zeydin simasında sənətkarın önə çəkmək istədiyi məhz yoldaşlıqdakı vəfalılıq xüsusiyyəti olduğu üçün tədris prosesində müəllimin bələdçiliyi ilə Zeydin Məcnundan təcrid olunmuş şəkildə təhlilə cəlb edilməsi təhlil dərsinin natamamlığına gətirib çıxara bilər. Buna görə, hər iki obrazın bir-birinə münasibətindəki incə məqamların şagirdlərin diqqət mərkəzində saxlanılmasına müəllim tərəfindən əhəmiyyət verilməsi vacibdir.

## İstifadə edilmiş ədəbiyyat / References


1. Babayev Y. (2018). Azərbaycan ədəbiyyatı tarixi (XIII-XVIII əsrlər). Bakı, Elm və təhsil. 760 s.
2. Füzuli M. (2005). Əsərləri. 6 cilddə. I cild. Bakı, Şərq-Qərb. 336 s.
3. Həsənli B. (2014). Ədəbiyyatın tədrisi metodikası. Bakı, Müəllim. 424 s.
4. Həsənli B. (2004). Ədəbiyyat dərslərində Nizami və Füzuli "Leyli və Məcnun"larının müqayisəli öyrədilməsi imkanları. "Azərbaycan dili və əbədiyyat tədrisi" jurnalı. Bakı, №1
5. Yusifov F. (2017). Ədəbiyyatın tədrisi metodikası. Bakı, ADPU. 304 s.
6. https://dergipark.org.tr/en/download/article-file/76699